# İnformasiya müharibəsinin də qalib sərkərdəsi

***Prezident İlham Əliyev Brüsselə səfəri zamanı diqqət çəkən məqamlardan biri də dövlət başçımızın İspaniyanın "El Pais" qəzetinə müsahibəsi oldu. Müsahibədə Azərbaycanla Ermənistan arasındakı hazırkı vəziyyət, sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı görüləcək işlər, Ermənistanın sülh müqaviləsinin imzalanmasına hələ də razılıq verməməsinin səbəbləri, 30 il ərzində Ermənistanın işğal etdiyi ərazilərimizdə mədəni irsimizə qarşı törətdiyi vəhşiliklər barədə məlumat verildi.***



Ümumiyyətlə, İkinci Qarabağ müharibəsində qazandığımız tarixi Qələbədə əsas amillərdən biri də informasiya cəbhəsində Ermənistana qalib gəlməyimiz oldu. Təsəvvür edin ki, Vətən müharibəsi dövründə möhtərəm Prezidentimiz, eyni zamanda, Ali Baş Komandan kimi, demək olar ki, dünyanın 30-dan çox aparıcı nüfuzlu media qurumlarına geniş müsahibələr verdi. Beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla izlənilən bu müsahibələrin hər biri düşmənlə aparılan informasiya müharibəsində qalibiyyət simvoluna çevrildi. Müharibə aparan bir ölkənin dövlət başçısı ağır və mürəkkəb iş rejimi olmasına baxmayaraq, kütləvi informasiya vasitələrinə xüsusi diqqət göstərirdi. Ali Baş Komandanımız hər iki cəbhədə qalib gəldi.

Dövlət başçımız "El Pais" qəzetinə müsahibəsində növbəti dəfə erməni vandalizmini, qəddarlığını ifşa etdi. Dedi ki, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində mədəni irsimizə qarşı soyqırımı törədib. Şəhər və kəndlərimiz yerlə-yeksan edilib. Həmin ərazilərdə səfərdə olan diplomatik korpusun nümayəndələri, Avropa və dünyanın digər yerlərindən olan jurnalistlər də daxil olmaqla, minlərlə ziyarətçi erməni vəhşiliyinin şahidi oldular.

Dövlər başçısı dedi ki, Ağdam və Füzuli rayonlarının yaşayış məskənləri tamamilə yerlə-yeksan edilib. Bütün binaların qəsdən dağıdılması və dini abidələrimizin məhvi Birinci Qarabağ müharibəsi zamanı deyil, işğal dövründə törədilib. 67 məsciddən 65-i tamamilə dağıdılıb. Qalan 2 məsciddə onlar azərbaycanlıların heysiyyətini təhqir etmək üçün donuz və inək saxlayıblar. Ona görə də Azərbaycanda çox sayda insan, xüsusilə əzizlərini, ərazilərini itirən insanların Ermənistana qarşı nifrəti təbiidir.

Dövlət başçımız İkinci Qarabağ müharibəsi başa çatandan sonra Azərbaycanın Ermənistandan qabaq bütün hərbi əsirləri azad etdiyini diqqətə çatdırdı. Hazırda saxlanılan şəxslərin isə hərbi əsir hesab edilmədiyini bildirdi. Çünki onların əksəriyyəti noyabrın sonunda, müharibə başa çatandan, demək olar ki, 20 gün sonra işğaldan azad edilmiş ərazilərə terror aktları törətmək üçün göndəriliblər. İndiyədək 100-dən çox saxlanılan şəxs azad edilib. Cinayət törədənlər isə mühakimə olunub. Beləliklə, bu insanlar heç bir beynəlxalq konvensiya ilə hərbi əsir hesab edilə bilməzlər.

Dövlət başçımız xalqımızın 30 il ərzində ermənilərin işğalından, təhqirindən, təkəbbüründən əziyyət çəkdiyini bildirdi. Ermənistan ordusu bütün beynəlxalq təşkilatların sənədlərinə zidd olaraq torpaqlarımızı dağıdırdılar. İddia edirdilər ki, bu torpaq onlara məxsusdur. BMT Təhlükəsizlik Şurası, ATƏT, Avropa Şurası, Avropa Parlamenti və digər beynəlxalq qurumlar Azərbaycanı dəstəkləyən qətnamələr qəbul etmişdi, lakin Ermənistan isə işğalçılıq siyasətindən əl çəkmirdi. Buna baxmayaraq, motivasiya, ruh yüksəkliyi və cəsarət qələbəmizin əsas amili oldu. Bu, milli ləyaqət və qürur məsələsi idi.

***Havva MƏMMƏDOVA,***
***tarix elmləri doktoru, professor***

Xalq qəzeti.- 2021.- 19 dekabr.- S.4.